# QƏLƏMİ QURUMAYAN ŞAİR

**"Ədalət" nəşri qısa zaman kəsiyində artıq ikinci dəfə, şübhəsiz, uğurlu imza olan Dəmir Çeşməli yaradıcılığına üz tutub onun silsilə şeirlərini yayınlayıb.**

Elçin, Aqil Abbas, Murad Köhnəqala, Səfər Alışarlı, Aqşin Yenisey, Şəhriyar Del Gerani və s. ədəbi yaradıcılığını tənqidi yazıları ilə növbələşdirən qələm sahiblərinin olduğu halda, mən tənqidçi olmaq iddiasından uzağam  və ancaq səmimi oxucu düşüncələrimi yazdığımı bildirirəm.

Dəmir əmirlə 2008-dən tanışam. O zaman ictimai fəaliyyətimlə əlaqədar olaraq Qida Kollecində bulunurdum. Əvvəllər ədliyyə sistemində çalışmış Dəmir Yusifov həmin koollecdə hüquq fənlərindən dərs deyirdi. Hər ikimizin ədəbi yaradıcılığa meyl göstərməyi, bir neçə nəşr olunmuş kitablarımızın olmağı bizi daha da birləşdirdi. Və mən özüm üçün folklora, bayatı-qoşma-gəraylıya bağlı istedadlı bir yazar kəşf etdim.

Dəmir Çeşməli məzmun və üslub etibarı ilə Səməd Vurğun, Osman Sarıvəlli, Zəlimxan Yaqub məktəbinin davamçısıdır. Doğrudur, çağdaş dövrümüzdə bu məktəbi bəyənməyənlər, onun nümayəndələrini qəbul etməyənlər az deyil. Amma, bununla belə, Dəmir Çeşməli və onun kimi yazanların ortaya qoyduğu ədəbi məhsul bu cərayanın bu gün də tükənmədiyinə dəlalət edir.

**Əsdin yel əsimi kimi,**
**Kəsdin ip kəsimi kimi,**
**İpləndim Nəsimi kimi,**
**Asdın , edam edən oldun.**

-misraları Nəsimi ilində xüsusən aktualdır.

**Gül-çiçək axını...çox şey olacaq,**
**Sevdiyim sevdalar həmrəy olacaq,**
**Bu arzu dönəmi min səy olacaq,**
**Qonaq edəcəyəm bahara səni.**

Ömrün payız dövrünü yaşayan Dəmir əmirin bu sevgi hayqırtıları oxucuya əsl bahar ovqatı bəxş edərək onu ömrün hər bir dövründə sevib-sevilməyə çağırır. Bir az da nöqsanlardan danışaq. "Azərbaycan" şeiri ümumiçilik və sözün pis mənasında ritorik üslubda yazılıb və bu mövzuda yazılan çoxsaylı nümunələrin təkrarından ibarətdir. "Özünə baxırmış Allah" şeirinin təzədən işlənməyə və dəqiqləşdirilməyə ehtiyacı var.

Ümumiyyətlə, Dəmir Çeşməlinin çoxillik yaradıcılığının başcıl motivi saf, səmimi, dərin, möhtəşəm sevgidir. O,



Qayıt ilk gəncliyim, qayıt bu gecə,
-yazanda da bu hisslərlə yaşayır;

**Ömür qovuşur sonuma,**
**Bəlkə qəsdi var canıma?!**
**Bürünüb bəyaz donuma,**
**Gözləmişəm sənin üçün.**

-yazanda da.
Sənətkar bəzən şübhələnir ki,
Qələmim quruyub, yaza bilmirəm.

"Ədalət" qəzetindəki silsilələr göstərir ki, Dəmir əmirin qələmi hələ qurumaqdan çox uzaqdır. ("Od tutdu qələm, yandı qələmdanə yetincə.") Və gözəl şairimiz hələ sevgi dolu şeirləri ilə ürəkləri fəth edəcək.

Dəmir Çeşməlinin yaradıcılığı göstərir ki, şeir-sənət cameiəmizə öz sözü, öz nəfəsi olan incə qəlbli bir şair gəlib. Xoş gəlmisən, ŞAİR!

**BƏHRAM BASQALLI**
**AYB üzvü, fəlsəfə doktoru**

Ədalət 2019.- 29 mart.- S.6.